UOT 902
Orxan ƏLİYEV
AMEA Arxeologiya və Antropologiya İnstitutunda
“Arxeoloji abidələrin qeydiyyatı və pasportlaşdırılması” şöbəsi,
tarix üzrə fəlsəfə doktoru, elmi işçi
orxanaliyev288@yahoo.com
https://orcid.org/0009-0009-0344-9894

NAXÇIVANDA TUNC DÖVRÜ MƏDƏNİYYƏTİ VƏ SOSİAL STRUKTURUN ARXEOLOJİ ƏKSLƏRİ

Xülasə: Bu məqalə Naxçıvanın Tunc dövrü mədəniyyətini ətraflı arxeoloji materiallar əsasında təhlil edir. Tədqiqat, Kür-Araz mədəniyyətinin geniş kontekstində Naxçıvan bölgəsinin özünəməxsus sosial strukturunu, məskunlaşma strategiyalarını və müxtəlif sənətkarlıq sahələrinin, xüsusilə də dulusçuluğun inkişaf dinamikasını dərindən araşdırır. Məqalədə I və II Kültəpə, Ovçulartəpəsi, Maxta, Şahtaxtı, Oğlanqala kimi əsas yaşayış məskənlərində aparılmış arxeoloji qazıntıların nəticələri təqdim olunur. Bu abidələrin stratigrafik təhlili, Tunc dövrü yaşayış yerlərinin kompleks çoxqatlı quruluşunu, onların funksional bölgüsünü, müdafiə xüsusiyyətlərini və memarlıq elementlərini aydın şəkildə əks etdirir. Əldə edilmiş maddi-mədəniyyət nümunələri, xüsusilə də keramika və metal əşyalar, regionun Kür-Araz mədəniyyəti ilə sıx əlaqəsini və onun lokal inkişaf yollarının spesifikasını ortaya qoyur.

Dulusçuluq sənəti Tunc dövründəki mədəni inkişafın mühüm göstəricisi kimi diqqət mərkəzindədir. Tədqiqatlar göstərir ki, sadə qabların istehsalından dulus çarxının geniş tətbiqinə, yüksək estetik keyfiyyətli boyalı keramik nümunələrin yaranmasına və ixtisaslaşmış emalatxana komplekslərinin fəaliyyətinə qədər olan proseslər yerli texnoloji biliklərin formalaşmasını və bədii zövqün təkamülünü əks etdirir. Naxçıvanın Yaxın Şərq, Mesopotamiya və Cənubi Qafqaz regionları ilə intensiv iqtisadi və mədəni əlaqələri, qazıntılar zamanı aşkarlanmış Misir pastasından hazırlanmış muncuqlar və nadir şirli qablar kimi artefaktlarla möhkəm şəkildə sübuta yetirilir. Bundan əlavə, Ordubad rayonundakı Gəmiqaya qayaüstü təsvirləri, Tunc dövrü cəmiyyətinin mifoloji təsəvvürlərini və etnoqrafik inanclarını əks etdirən əhəmiyyətli vizual mədəniyyət nümunəsi kimi tədqiq olunur. Məqalənin nəticələri göstərir ki, Naxçıvan Tunc dövründə regional və beynəlxalq miqyasda mühüm mədəni, iqtisadi və strateji bir mərkəz rolunu oynamış, qədim Azərbaycanın inkişafında xüsusi yer tutmuşdur. Bu tədqiqat, regionun tarixi və mədəni irsinə dair yeni perspektivlər təqdim edir.

Açar sözlər: Naxçıvanın Tunc dövrü mədəniyyəti, Kür-Araz mədəniyyəti, Erkən və Orta Tunc dövrü, Arxeoloji qazıntılar, I və II Kültəpə

Orkhan ALİYEV

ARCHAEOLOGİCAL EVİDENCE OF THE BRONZE AGE CULTURE AND SOCİAL STRUCTURE OF NAKHCHİVAN

Abstract: This article provides a comprehensive analysis of the Bronze Age culture of the Nakhchivan region based on archaeological materials. The study examines the region’s unique social structure, settlement strategies, and the development of various crafts—particularly pottery—within the broader context of the Kura-Araxes culture. It presents the results of archaeological excavations conducted at major sites such as I and II Kültepe, Ovchulartepe, Maxta, Shahtaxti, and Oghlangala. Stratigraphic analysis of these sites clearly reflects the complex multilayered structure of Bronze Age settlements, their functional zoning, defensive features, and architectural elements.

The recovered material culture artifacts, especially ceramics and metal objects, demonstrate both the strong connection with the Kura-Araxes culture and the specific local developmental patterns of the region. Pottery is emphasized as a key indicator of cultural development during the Bronze Age. Research shows a progression from the production of simple vessels to the widespread use of the potter's wheel, the emergence of highly aesthetic painted ceramics, and the operation of specialized workshop complexes. These processes reflect the formation of local technological knowledge and the evolution of artistic taste.

Nakhchivan's intensive economic and cultural interactions with the Near East, Mesopotamia, and the South Caucasus are strongly evidenced by discoveries such as beads made of Egyptian faience and rare glazed ceramics. In addition, the rock carvings of Gamigaya in the Ordubad district are studied as important examples of visual culture that reflect the mythological beliefs and ethnographic worldview of Bronze Age society.

The findings of the study indicate that during the Bronze Age, Nakhchivan played a significant cultural, economic, and strategic role on both regional and international levels, occupying a special place in the development of ancient Azerbaijan. This research offers new perspectives on the historical and cultural heritage of the region.

Keywords: Nakhchivan Bronze Age culture, Kura-Araxes culture, Early and Middle Bronze Age, archaeological excavations, Kultepe I and II.

Орхан АЛИЕВ

АРХЕОЛОГИЧЕСКИЕ СВИДЕТЕЛЬСТВА БРОНЗОВОГО ВЕКА НАХЧЫВАНА: КУЛЬТУРА И СОЦИАЛЬНАЯ СТРУКТУРА

Абстракт: В данной статье подробно анализируется культура бронзового века Нахчыванского региона на основе археологических материалов. Исследование охватывает особенности социальной структуры, стратегий расселения и развитие различных ремесленных направлений, особенно гончарного производства, в контексте широкой культуры Куро-Араксского круга. В статье представлены результаты археологических раскопок на таких ключевых памятниках, как I и II Кюльтепе, Овчулартепеси, Махта, Шахтахты и Огланга́ла. Стратиграфический анализ этих памятников ярко отражает сложную многослойную структуру поселений бронзового века, их функциональное зонирование, оборонительные особенности и архитектурные элементы.

Обнаруженные материальные артефакты, в первую очередь керамика и металлические изделия, свидетельствуют о тесных связях региона с Куро-Араксской культурой и одновременно выявляют особенности её локального развития. Гончарное искусство рассматривается как важный индикатор культурного прогресса в бронзовом веке. Исследования показывают развитие от производства простых сосудов до широкого применения гончарного круга, создания высокохудожественных расписных керамических изделий и функционирования специализированных мастерских, что отражает формирование местных технологических знаний и эволюцию художественного вкуса.

Активные экономические и культурные связи Нахчывана с регионами Ближнего Востока, Месопотамии и Южного Кавказа убедительно подтверждаются находками, такими как бусы из египетской пасты и редкая глазурованная керамика. Кроме того, наскальные изображения Гемигая в Ордубадском районе исследуются как значимые образцы визуальной культуры, отражающие мифологические представления и этнографические верования общества бронзового века.

Результаты исследования показывают, что в бронзовом веке Нахчыван играл важную культурную, экономическую и стратегическую роль как в региональном, так и

в международном масштабе, занимая особое место в развитии древнего Азербайджана. Настоящее исследование предлагает новые перспективы в изучении историко-культурного наследия региона.

Ключевые слова: Бронзовый век Нахчывана, Кура-Араксская культура, ранний и средний бронзовый век, археологические раскопки, I и II Кюльтепе.

Giriş

XX əsrin ortalarından etibarən Qafqazın Tunc dövrü arxeoloji abidələrinin tədqiqi geniş miqyas almışdır. Bu istiqamətdə E. Reslerdən başlayaraq İ. Meşşaninov, T. Passek, B. Latının, D. Şərifov, O. Həbibullayev, Ə. Ələkbərov, Q. Melikişvili, P. Tavadze, R. Munçayev, İ. Nərimanov, H. Kəsəmənli, Y. Krupnov, B. Texov, C. Xəlilov, Q. İsmayılzadə, M. Hüseynova, Q.M. Aslanov, V. Əliyev, H. Cəfərov, M. Rəhimova, F. Muradova, T. Axundov, S. Aşurov, N. Müseyibli, İ. Avşarova kimi alimlərin tədqiqatları mühüm elmi nəticələr ortaya qoymuşdur.

E.ə. IV minilliyin ortalarından başlayaraq Qafqaz bölgəsində cəmiyyətin sosial-iqtisadi quruluşunda dərin transformasiyalar baş vermiş, bu proses nəticəsində Eneolit (mis dövrü) mədəniyyəti yerini Erkən Tunc dövrünün kompleks arxeoloji mədəniyyətinə vermişdir. Sözügedən dəyişikliklər həm yerli ictimai inkişaf dinamikasının, həm də Ön Asiya ilə intensiv mədəni-iqtisadi münasibətlərin təsiri ilə baş vermişdir. Azərbaycanın Erkən Tunc dövrünə aid mədəniyyət arxeoloji ədəbiyyatda "Kür-Araz mədəniyyəti" adı ilə tanınır. Bu mədəniyyətə məxsus abidələr əsasən yaşayış məkanları və dəfn komplekslərindən ibarətdir.

Azərbaycanda Tunc dövrü abidələrinin tədqiqatında Quruçay və Köndələnçay vadilərində aparılan işlər də mühüm yer tutur. Bu tədqiqatlar, bölgənin qədim mədəniyyətinin öyrənilməsinə dəyərli töhfələr vermişdir. Abidələrin lokal xüsusiyyətlərini nəzərə alaraq onların regionlar üzrə təhlili tədqiqat baxımından daha effektiv hesab edilir. Bu kontekstdə Naxçıvan–Urmiya zonası öz çoxtəbəqəli yaşayış məkanları ilə seçilir və xüsusilə əhəmiyyət daşıyır [11, s.39].

Naxçıvan bölgəsində Kür-Araz mədəniyyətinə aid bir sıra yaşayış məskənləri — I Kültəpə, II Kültəpə, Ovçulartəpəsi, Maxta Kültəpəsi, Xalac, Ərəbyengicə və Şortəpə müəyyən edilmişdir. Bu abidələrdən I və II Kültəpədə geniş miqyaslı arxeoloji qazıntılar aparılmış, digərləri isə əsasən kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Maldarlığın genişlənməsi tayfa icmaları daxilində əmlak bölgüsündə fərqliliklər yaratmış, bəzi tayfa başçıları iqtisadi potensiallarına əsaslanaraq ictimai ittifaqlarda liderlik mövqeyi qazanmışlar. Qəbir abidələrinin formal müxtəlifliyi və onlardan əldə edilən maddi inventar — zəngin əşyalı dəfnlərdən sadə torpaq qəbirlərinə qədər — bu mərhələdə sosial təbəqələşmənin arxeoloji göstəricisi kimi qiymətləndirilə bilər [2, s.63].

Cənubi Qafqazın Erkən Tunc dövrü mədəniyyətində qulplu, çaydan formalı su qabları mühüm yer tutur. Bu tip keramika nümunələri Luristan, Təpə-Hissar, Təpə-Sialk (İran), Anauda (Türkmənistan), Naxçıvan Kültəpə və Anadolu bölgələrində də aşkarlanmışdır. Tapıntılar Qafqazın bu dövrdə geniş regional əlaqələrə malik olduğunu və mədəni inkişafın çoxtərəfli xarakterini göstərir. Naxçıvan Tunc dövründə Yaxın Şərq və Cənubi Qafqazda mühüm mədəniyyət mərkəzi kimi formalaşmış, iqtisadi və strateji mövqeyinə görə ilk şəhərlərin yaranmasına zəmin yaratmışdır [1, s.62].

Naxçıvanda tunc dövrü mədəniyyəti və sosial strukturun arxeoloji əksləri

Naxçıvanda Tunc dövrünə aid arxeoloji mənzərə, həmin dövrün cəmiyyətinin sosial strukturunun və mədəni inkişaf dinamikasının kompleks şəkildə izlənməsinə imkan verir. Kurqan tipli dəfn abidələri və oturaq yaşayış məskənlərində aparılmış arxeoloji qazıntılar nəticəsində əldə edilən maddi mədəniyyət nümunələri — xüsusilə keramika və metal artefaktlar — bu bölgənin Kür-Araz mədəniyyəti ilə bağlılığını və lokal inkişaf proseslərinin spesifikasını aydın şəkildə ortaya qoyur. Bu dövrə aid kurqanlar və yaşayış yerləri arasında Kültəpə, Uzunoba, Dəstə, Şahtaxtı və digər abidələr elmi baxımdan xüsusi əhəmiyyət daşıyır.

E.ə. III-I minilliyin ortalarında sənətkarlığın inkişafı və təkamülü nəticəsində Yaxın Şərq, Ön Asiya və Cənubi Qafqazdan keçən karvan yolları üzərində mühüm iqtisadi və strateji mövqeyə malik olan ilk şəhərlər yaranmışdır. Bu dövrdə Azərbaycanın ərazisində II Kültəpə, Oğlanqala, Üzərliktəpə, Qaragöbəktəpə, Çinartəpə və digər yaşayış məskənləri və qala-şəhərlər inşa edilmişdir [1, s.76].

Dulusçuluğun inkişaf mərhələləri

Tunc dövründə Naxçıvanda sənətkarlığın, xüsusilə dulusçuluğun yüksəlişi, ikinci böyük ictimai əmək bölgüsünün formalaşmasına zəmin yaratmış və dulusçuluq müstəqil sənət sahəsinə çevrilmişdir. Orta Tunc dövründə bu sənət şəhər sənətkarlığı səviyyəsinə qalxaraq ixtisaslaşmış sənətkarların əsas fəaliyyətinə çevrilmişdir. Onlar tərəfindən həm sadə gil məmulatlar, həm də rəngli boyalarla bəzədilmiş yüksək estetik keyfiyyətli qablar hazırlanmışdır [12, s.2055]. Dulusçuluğun bu mərhələdəki inkişafı artan tələbat və iqtisadi-mədəni əlaqələrin genişlənməsi ilə bağlı olmuş, nəticədə texniki cəhətdən təkmilləşmiş və bədii cəhətdən zəngin boyalı keramikalar istehsal edilmişdir. Əvvəlki dövrün sadə və funksional qablarından fərqli olaraq, Orta Tunc dövründə yüksək keyfiyyətli gildən zövqlə hazırlanmış, mükəmməl formalı məişət və təsərrüfat qabları təkcə daxili istifadə üçün deyil, həm də mübadilə üçün nəzərdə tutulmuşdur [13, s.120].

Erkən Tunc dövrünün əvvəlində dulusçuluq yerli xüsusiyyətlər daşıyan məhdud səviyyədə inkişaf etmiş və əsasən daxili tələbatı qarşılamaqla yanaşı, müəyyən mübadilə imkanlarına sahib olmuşdur. Orta və Son Tunc dövründə isə bu sahə əhəmiyyətli dərəcədə yüksəlişə keçərək qədim Azərbaycan tayfalarının gündəlik həyatında mühüm yer tutmuşdur.

Kültəpə II yaşayış yerində aşkarlanmış dulusçuluq emalatxanası, o cümlədən tapılmış çarxlar, rəngli boyalar və keramika məmulatları, həmin dövrdə ixtisaslaşmış sənətkarların fəaliyyəti və dulusçuluğun həm texniki, həm də estetik cəhətdən inkişaf etdiyini sübut edən dəyərli informasiya təqdim edir. Naxçıvan ustaları sənətkarlıq zövqü və texniki bacarıqları ilə seçilərək, müxtəlif motivli naxışları oval formalı qabların üzərində təsvir etməklə öz peşəkar təcrübələrini ortaya qoymuşlar [10, s.234]. Qızılburun, Nəhəcir, Şahtaxtı, Kültəpə II kimi abidələrdən əldə olunan keramika nümunələri Göytəpə, Haftavan, Təpəhissar və Mezopotamiya nümunələri ilə eyni səviyyədə qiymətləndirilir.

Yerli torpaqdan hazırlanmış və yüksək zövqlə bəzədilmiş bu qablar həm istehlak, həm də ticarət məqsədilə istifadə olunmuşdur. Dulusçuların ortaq üslub və elementləri mənimsəməsi isə bu məmulatların estetik dəyərini daha da artırmışdır

Naxçıvanın Orta Tunc dövrü mədəniyyəti: Arxeoloji tədqiqatlar və iqtisadi-mədəni inkişaf

Naxçıvan bölgəsində Erkən Tunc dövrünə aid materiallar əsasən Kültəpə I abidəsinin ikinci qatından əldə edilmişdir. Bu qatdan yuxarıda yerləşən üçüncü təbəqədə isə Orta Tunc dövrünə aid saxsı qab nümunələrinin qırıntıları, ən alt qatdan isə sadə qablarla yanaşı, tamamilə qırmızı boya ilə örtülmüş nümunələr tapılmışdır. O.H. Həbibullayev bu qatı Tunc dövrünün ilk əsrlərinə aid etmişdir. Qeyd olunan qablar bəzən Eneolit dövrü nümunələrindən fərqlənsə də, bəzi hallarda onlarla oxşar cəhətlər daşıyır. Dulus çarxından istifadə edilmədən hazırlanmış küpələr, qablar və kasalar çox vaxt arxaik formalarını qoruyub saxlamışdır. Bununla belə, ağız kənarları və qulpların formaları tədricən yarımkürəvi formalardan halqa formasına keçmişdir. Bəzi qab nümunələrinin xarici səthi əsasən qara, daxili səthi isə qırmızı olan bir qat müşahidə edilir. Bu xüsusiyyətlərə əsaslanaraq, həmin mədəni təbəqə eramızdan əvvəl XX–XV əsrlərə aid edilir [9, s.58].

Orta Tunc dövrünün keramika nümunələri iki əsas kateqoriyaya bölünür: sadə, gündəlik istifadə üçün nəzərdə tutulmuş qablar və bədii naxışlı qablar. Sadə keramika qalın divarlı, cilalanmamış gildən hazırlanır və əsasən gündəlik tələbat üçün istifadə edilən saxlanma və yemək qablarıdır. Bu tip keramika nümunələri həm Naxçıvan, həm də Urmiya hövzəsi və Şərqi Anadolu bölgəsində geniş yayılmışdır. Bədii naxışlı keramika isə nazik divarlı, yüksək

keyfiyyətli gil materialdan hazırlanır və fırça ilə çəkilmiş mürəkkəb həndəsi motivlərlə ("spiral", "zig-zag", "bucaq" və s.), antropomorf və zoomorf fiqurlarla bəzədilir. Bu tip qablar monoxrom və ya polixrom boyalarla örtülür və iqtisadi-mədəni əlaqələrin nəticəsi olaraq ticarət və mübadilə məqsədilə də istehsal edilirdi [8, s.146].

Naxçıvanın sənətkarlığı, xüsusilə dulusçuluq, Tunc dövründə yüksək səviyyəyə çatmışdır. 2009–2014-cü illərdə aparılan arxeoloji tədqiqatlar Kültəpə II-də aşkarlanmış dulusçuluq emalatxanası, çarxlar, rəngli boyalar və keramika məmulatları ilə bu inkişafı bir daha təsdiqləmişdir [7, s.115-117]. Bu dövrdə gil qabların tərkibinə nar qumu əlavə olunmuş, qablar qırmızı, çəhrayı, tünd qəhvəyi, boz və qara rəng əldə olunana qədər bişirilmişdir. Onların səthləri quş və heyvan təsvirləri, həndəsi ornamentlər, svastika işarələri ilə bəzədilmiş, cızma, oyma və həkk etmə üsullarından istifadə olunmuşdur [4, s.115-117]. Naxçıvan ustaları sənətkarlıq zövqü və texniki bacarıqları ilə seçilərək, müxtəlif motivli naxışları oval formalı qabların üzərində təsvir etməklə öz peşəkar təcrübələrini ortaya qoymuşlar [10, s.234]. Qızılburun, Nəhəcir, Şahtaxtı, Kültəpə II kimi abidələrdən əldə olunan keramika nümunələri Göytəpə, Haftavan, Təpəhissar və Mezopotamiya nümunələri ilə eyni səviyyədə qiymətləndirilir. Yerli torpaqdan hazırlanmış və yüksək zövqlə bəzədilmiş bu qablar həm istehlak, həm də ticarət məqsədilə istifadə olunmuş, dulusçuların ortaq üslub və elementləri mənimsəməsi isə estetik dəyəri daha da artırmışdır.

Naxçıvanın Tunc dövründəki yüksək iqtisadi inkişafı, müdafiə sistemlərinin möhkəmləndirilməsi və mədəni tərəqqisi regionda daimi yaşayış məskənlərinin sayının artmasına səbəb olmuşdur. Şimal–Cənub, Şərq–Qərb ticarət yollarının formalaşmasında əsas rol oynayan Qovurqala, Oğlanqala, Qalaçıq, I və II Kültəpə kimi yaşayış məskənləri və müdafiə qurğuları bu dövrdə xüsusi əhəmiyyət daşımışdır. S. Meşşaninov, A.A. Miller, A.K. Ələkbərov, O.H. Həbibbullayev, V. Əliyev, A. Seyidov, V. Baxşəliyev, S. Əşurov və B. İbrahimovun tədqiqatları göstərir ki, Naxçıvan Azərbaycanın digər bölgələri ilə müqayisədə qədim dövrlərdə xüsusi inkişaf yolu keçmişdir [6, s.13; 5, s.50].

E.ə. II minilliyin birinci yarısında Naxçıvan sənətkarlığın inkişaf səviyyəsinə görə Yaxın Şərqin ən qabaqcıl mədəniyyət mərkəzləri ilə eyni səviyyədə dayanırdı [6, s.11]. Bu dövrdə kənd təsərrüfatı və maldarlığın inkişafı, dulusçuluq və metallurgiya kimi sənətkarlıq sahələrinin tərəqqisi əhalinin sayının artmasına, yaşayış məskənlərinin genişlənməsinə və ətraf aləmlə əlaqələrin dərinləşməsinə şərait yaratmışdır. Naxçıvanda Orta Tunc dövründə formalaşan şəhərlər məhz belə sənətkarlıq mərkəzləri əsasında inkişaf etmişdir.

Boyalı qablar qədim Naxçıvan mədəniyyətinin inkişafında mühüm yer tutmuş və bu inkişaf dörd əsas mərhələdə izah olunmuşdur. O.H. Həbibbullayev və V.H. Əliyev bu mərhələləri aşağıdakı kimi təsnif etmişdir: birinci mərhələ e.ə. XX–XVIII əsrləri, ikinci mərhələ e.ə. XVII–XV əsrləri, üçüncü mərhələ e.ə. XIV–XI əsrləri, dördüncü mərhələ isə e.ə. X–VIII əsrləri əhatə edir [13, s.120]. Qədim Naxçıvanın ikinci inkişaf mərhələsində yerli dulusçular müxtəlif rəngli boyaların hazırlanma texnologiyasını mənimsəmiş və bu bilikləri keramika məmulatlarının bəzədilməsində tətbiq etmişlər. Qablar qara, qırmızı, ağ, sarı, qəhvəyi, mavi və digər rənglərlə incə və zərif şəkildə bəzədilmişdir [6, s.12]. 1975-ci ildə V.H. Əliyev "Azərbaycanın Tunc dövrü boyalı qablar mədəniyyəti" adlı monoqrafiyasında qeyd etmişdir ki, boyalı qablar mədəniyyəti əsasən qədim Şərq ölkələrində inkişaf etmiş və geniş əraziyə yayılmışdır. Qafqazda, xüsusilə də Azərbaycanın Naxçıvan bölgəsində bu qədim mədəniyyətin əsas mərkəzlərindən biri formalaşmışdır [4, s.3, s.61].

Naxçıvanın Tunc dövrü mədəniyyətinin ayrılmaz hissəsini Ordubad rayonunun Nəsirvaz kəndi yaxınlığında yerləşən Gəmiqaya qayaüstü təsvirləri təşkil edir. Bu təsvirlər əsasən Qaranquş, Nəbiürdü və Camışölən yaylaqlarında, bulaq ətraflarında toplanmışdır. Qayaüstü təsvirlərin folklor və etnoqrafik materiallarla müqayisəli təhlili göstərir ki, burada ibtidai insanların mifoloji təsəvvürləri əks olunmuşdur [3, s.67].

Nəticə

Naxçıvanın Tunc dövrü arxeoloji materialları regionun qədim dövrlərdə yüksək inkişaf etmiş mədəniyyət mərkəzlərindən biri olduğunu dəqiq şəkildə təsdiqləyir. Kür-Araz mədəniyyəti ilə sıx bağlılığına baxmayaraq, Naxçıvan özünəməxsus lokal xüsusiyyətlər nümayiş etdirmiş, sosial və iqtisadi inkişaf baxımından seçilən bir ərazi kimi formalaşmışdır. Kültəpə, Şahtaxtı və Oğlanqala kimi yaşayış məskənləri, həmçinin qala-şəhər tipli abidələr bu dövrün inkişaf etmiş müdafiə sistemlərinin və strateji əhəmiyyətinin bariz göstəricisidir.

Dulusçuluq sənətinin tərəqqisi Naxçıvanın Tunc dövrü mədəniyyətinin mühüm göstəricisidir. Sadə keramika nümunələrindən Orta Tunc dövrünün incə işlənmiş və çoxrəngli boyalı qablarına keçid, yerli sənətkarların texnoloji bilik və bədii bacarıqlarının yüksək səviyyəyə çatdığını əks etdirir. Bu məmulatlar yalnız məişət tələbatı üçün deyil, həm də geniş ticarət və mübadilə üçün istifadə edilmişdir. Aşkarlanmış şirli qablar və Misir pastasından hazırlanmış muncuqlar Naxçıvanın Yaxın Şərq və Cənubi Qafqaz regionları ilə intensiv iqtisadi və mədəni əlaqələrə malik olduğunu sübut edir.

Tunc dövründə kənd təsərrüfatı və maldarlığın inkişafı ilə yanaşı, sənətkarlıq sahələrində dərin ixtisaslaşma baş vermişdir. Bu proses ikinci böyük ictimai əmək bölgüsünün formalaşmasına və şəhər tipli yaşayış məskənlərinin yaranmasına səbəb olmuşdur. Nəticədə, Naxçıvan həmin dövrdə Cənubi Qafqazın əsas iqtisadi və mədəni mərkəzlərindən birinə çevrilmişdir.

Ümumilikdə, Naxçıvanın Tunc dövrü abidələri qədim Azərbaycan tayfalarının yüksək mədəniyyətini, iqtisadi inkişaf səviyyəsini və geniş regional–beynəlxalq əlaqələrini əks etdirən zəngin bir irsi təmsil edir. Bu tədqiqatlar gələcək arxeoloji və tarixi araşdırmalar üçün mühüm baza yaradır və Naxçıvanın qədim dövrlərdəki mövqeyinin daha dərindən öyrənilməsinə geniş imkanlar açır.

Ədəbiyyat

1. Avşarova İ.N., Pirquliyeva Q.Ə. Qafqaz arxeologiyası. Dərslik. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2010, 248 s.
2. Baxşəliyev V. Azərbaycan arxeologiyası (Ali məktəb tələbələri üçün vəsait). Bakı: Elm, – 2007. – 239 s.
3. Baxşəliyev V. Gəmiqaya təsvirləri. – Bakı: Elm, – 2002. – s. 64–102.
4. Əliyev V. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. – Bakı: Elm, – 1977. – 165 s.
5. Əliyev V. Qədim Naxçıvan. – Bakı: Elm, – 1979. – 57 s.
6. Əliyev V. Tarixin izləri ilə. – Bakı: Gənclik, – 1975. – 80 s.
7. Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpədə yeni tədqiqatlar. – Bakı: Elm, – 2011 s. 115-117.
8. Halilov T. Nahçıvan bölgəsinin Orta Tunc Çağı gil qabları üzərindəki təsvirlərin yayılma sahəsi və mənası haqqında // KAREN: Karadeniz Araştırmaları Enstitüsü Dergisi. – 2018. – Cild 4, №5. – S. 141–154. – DOI: https://doi.org/10.17823/karen.438368
9. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. – Bakı: AMEA-nın nəşri, – 1959. – 134 s.
10. Xəlilov T.F. Naxçıvan diyarının Tunc dövrü dulusçuluq sənəti: 5505.02 – Arxeologiya ixtisası üzrə tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya. – Naxçıvan, 2024. – 320 s.
11. İsmayılov Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. – Bakı: Elm, – 1981. – s. 39.
12. Khalilov, T. Pottery in the Bronze Age of Nakhchivan // Akademik Tarix və Düşüncə Dərgisi. – 2023. – Cild 10, №6. – S. 2048–2072.
13. Məmmədova A. The role of early urban settlements ın the bronze age ın azerbaıjan ın economıc-cultural relatıons (based on excavations in Nakhchivan in 2009-2014)// Scientific Horizon in the Context of Social Crises: Scientific Collection “Interconf”. – 2024, № 124. – s. 116–126.

Məqalənin redaksiyaya daxilolma tarixi: 28.07.2025

Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 13.08.2025

Məqalənin çapa qəbul olunma tarixi: 28.08.2025